Ədəbiyyat qəzeti

# Ədəbi tənqid

Milli ədəbiyyatşünaslıq elminin inkişafının son yarım əsrdən artıq bir dövründə adı və imzası həmişə ön sırada olan akademik Bəkir Nəbiyev Azərbaycan ədəbiyyatının tədqiqi sahəsində ölkəmizdə ardıcıl və sanballı xidmətlər göstərən görkəmli elm xadimidir. Əsas tədqiqat sahəsi XX əsr ədəbiyyatının öyrənilməsi məsələləri olsa da, o, ötən dövr ərzində milli ədəbiyyatımızın çoxəsrlik tarixi inkişaf yoluna, bu möhtəşəm ədəbiyyatın qüdrətli yaradıcılarının həyatı və yaradıcılığına, eyni zamanda, ədəbi fikrimizin aktual problemlərinə həsr etdiyi qiymətli elmi əsərləri ilə dövr və zaman məhdudiyyətinin sədlərini aşaraq ümumiyyətlə tam, bütöv halda Azərbaycan ədəbiyyatını dərindən araşdırıb - ümumiləşdirən geniş elmi dünyagörüşünə malik ədəbiyyatşünas olduğunu çoxdan isbat etmişdir. Dünya ədəbiyyatının da tanınmış şəxsiyyətləri və əhəmiyyətli problemləri akademik Bəkir Nəbiyevin sistemli elmi təqdimatında Azərbaycan elmi mühitinin dövriyyəsində layiqli yerini tuta bilmişdir. Keçən yarım əsrin təcrübəsi göstərir ki, Bəkir müəllim ədəbiyyatşünaslıq elminin demək olar ki, bütün sahələrində - ədəbi tənqid, ədəbiyyatın tarixi və nəzəriyyəsi, ədəbi əlaqələr, folklorşünaslıq sahələrindən hər birində özünəməxsus professional elmi söz deməyi bacarıb. Çoxillik elmi fəaliyyətində ədəbi tənqid və ədəbiyyat tarixi məsələləri ağır gəlsə də, onun digər istiqamətlərdə də yazıb ərsəyə gətirdiyi əsərlər daim mötəbər elmi mənbə səviyyəsində qəbul olunur. Bundan başqa onun ədəbiyyatşünaslıqla yanaşı teatrşünaslıq, dilşünaslıq, sənətşünaslıq, hətta yeri gələndə tarixşünaslıq, elmşünaslıq sahələrində də yüksək meyarlara cavab verən dəyərli əsərlərin müəllifi kimi də böyük nüfuz qazanmışdır. Azərbaycan ədəbiyyatşünaslığının tarixində universal elmi düşüncəni Bəkir müəllim qədər bütün yönləri ilə layiqincə təmsil edən elm xadimlərimiz çox deyildir. Eyni zamanda, ardıcıl olaraq, dövri mətbuat səhifələrində, elmi-ictimai mühitdə, mötəbər xitabət kürsüsündə söz demək baxımından akademik Bəkir Nəbiyevlə müqayisə edilə biləcək görkəmli elm adamı tapmaq da asan məsələ sayıla bilməz. Bu mənada akademik Bəkir Nəbiyevin altmış ildən artıq davam etməkdə olan yorulmaz fəaliyyəti nəticəsində meydana çıxan elmi əsərlərindən ibarət nümunəvi bir mini kitabxana yaratmaq mümkündür. Bu fonda geniş oxucu auditoriyasına təqdim edilən beşcildlik "Seçilmiş əsərlər" həmin çoxcildlik külliyyatın ən dəyərli seçmələri kimi onun elmi fəaliyyəti barədə ümumiləşmiş təsəvvür yaratmağa imkan yaradan qiymətli elmi salnamədir. Bu, Azərbaycan ədəbiyyatşünasları arasında meydana çıxarılan ilk beşcildlik kimi də mühüm əhəmiyyət kəsb edir. Təqdim edilən beşcildlik geniş mənada Azərbaycan ədəbiyyatşünaslıq elminin birinci xəmsəsi olmaq etibarilə də ədəbiyyat haqqında elmin tarixində özünəməxsus görkəmli yer tutur.

Akademik Bəkir Nəbiyevin beşcildlik "Seçilmiş əsərləri" (Bakı, "Çinar-çap", 2009) görkəmli alimin çoxillik və səmərəli elmi fəaliyyətinin əsas problemlərini, ana xətlərini, ədəbi şəxsiyyətlərə dair tədqiqatlarından sanballı seçmələri özündə əks etdirir. Nə vaxt yazılmasından asılı olmayaraq, təqdim edilən "seçmələrin" demək olar ki, hamısı dəyərli ədəbiyyatşünaslıq faktı hesab olunmağa layiqdir. Alimin ayrı-ayrı illərdə yazdığı əsərləri mümkün olduqca yarandığı dövrün yüksək elmi səviyyəsində dayanmışdır. Bu mənada beşcildliyə daxil edilmiş əsərlərdən hər biri yarandığı tarixi mərhələnin elmi səviyyəsini də özündə əks etdirmək imkanlarına malikdir. Fikrimizcə, "Kamalın təntənəsi" monoqrafik tədqiqatı B.Nəbiyevin elmi fikrinin geniş imkanları ilə yanaşı, həm də XX əsrin yetmişinci illərinin ədəbiyyat elminin yüksək səviyyəsini nümayiş etdirir. Vaxtilə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülmüş bu sanballı əsərdə Böyük Vətən müharibəsi dövrü Azərbaycan ədəbiyyatının tam, bütöv mənzərəsi geniş və sistemli şəkildə canlandırılmışdır. Monoqrafiyada, eyni zamanda, İkinci Dünya müharibəsindən sonrakı dövrlərdə də ön və arxa cəbhə həyatından bəhs edən çoxsaylı əsərlərin də obyektiv elmi qiyməti verilmişdir. Yazıldığı vaxtdan otuz ilə yaxın bir dövr keçməsinə, cəmiyyət həyatında ciddi dəyişikliklərin baş verməsinə baxmayaraq, "Kamalın təntənəsi" monoqrafiyası özünün elmi əhəmiyyətini qoruyub saxlaya bilmişdir. Nəinki bu günün, hətta bundan sonrakı dövrlərin də azərbaycanlı oxucusu Azərbaycan ədəbiyyatında müharibə mövzusunun əsas inkişaf meylləri, aparıcı mövzuları və qəhrəmanları, ədəbiyyatda səfərbərlik və vətənpərvərlik ruhunun bədii təcəssümünün mahiyyəti haqqında ən başlıca mətləbləri bu elmi əsərdən öyrənə biləcəkdir. Bizə görə, "Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı" monoqrafik tədqiqatı akademik Bəkir Nəbiyevin elmi fəaliyyətinin təntənəsini özündə əks etdirən mükəmməl elmi əsərdir. Bu, ədəbiyyatşünaslığın müharibə və Azərbaycan probleminə həsr olunmuş elmi epopeyasıdır. Hələ 1970-ci ildə Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı mövzusuna həsr olunmuş doktorluq dissertasiyasında öz əksini tapmış aşağıdakı mülahizələr bu qiymətli elmi əsərin çağımız üçün də aktual və əhəmiyyətli olduğunu düşünməyə əsas verir: "Müharibə mövzusunda yazılmış əsərlərimiz birinci növbədə yeni müharibə əleyhinə əsərlər kimi diqqəti cəlb edir... Ədəbiyyatımız imperialistlərin yeni torpaqlar, bazarlar, müstəmləkələr tutmaq üçün apardığı ədalətsiz müharibələrə kökündən zidd olub, ona qarşı çıxdığı halda, öz vətəni, səadəti, istiqlaliyyəti, ictimai azadlığı uğrunda vuruşanların ədalətli müharibəsinə həmişə tərəfdardır".

Bu mənada görkəmli alimin "Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı" monoqrafiyası özünün ərazi bütövlüyünü qorumaq, itirilmiş torpaqlarını qaytarmaq uğrunda mübarizə aparan Azərbaycan xalqının yeni tarixi şəraitdəki mübarizəsindən yazılacaq elmi və bədii əsərlərinin möhkəm bünövrəsi, dərin mənalı proloqu kimi səslənir.

"Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı" monoqrafiyası ədəbiyyat tarixçiliyi ilə ədəbi tənqidin üzvi sintezi əsasında yazılmışdır. Məsələnin bu cəhəti Akademik Bəkir Nəbiyevin fərdi elmi üslubunu şərtləndirir. Görkəmli alimin əsərlərində, o cümlədən beşcildlikdə əhatə olunmuş əsərlərdə hər iki qanadın yanaşı, yaxud vəhdətdə mövcud olduğu aşkar nəzərə çarpır. Sadəcə olaraq Bəkir Nəbiyevin

# ağırlıqlı ədəbiyyatşünaslıq irsi

elmi əsərlərində ədəbiyyat tarixçiliyi və ya ədəbi tənqiddən hər hansı birinin ağırlıq təşkil etdiyini müşahidə etmək mümkündür. Fikrimizcə, azadlıq nəğməkarı, xalq şairi Xəlil Rza Ulutürkə həsr olunmuş "İstiqlal şairi" monoqrafiyasında da Bəkir Nəbiyevin ədəbiyyat tarixçiliyi ilə tənqidçi təfəkkürünün yanaşı addımladığı nəzərə çarpır. "Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı" monoqrafiyasının müharibə dövrünün ədəbi-ictimai gedişatına həsr olunmuş hissəsində ədəbiyyat tarixçiliyi, sonrakı bölmələrdə isə ədəbi tənqid baxımından yanaşma və dəyərləndirmələr üstünlük qazanmışdır. Həmçinin "İstiqlal şairi" monoqrafiyasındakı "Şair ömrü - vətəndaşlıq məramı" fəsli müəllifin ədəbiyyat tarixçiliyi istiqamətindəki axtarışları əsasında, qalan əsas fəsillər tənqidçilik meyarları vasitəsi ilə araşdırılıb ümumiləşdirilmişdir. Hətta bu əsərdə Xəlil Rza yaradıcılığının "Sənətkarlıq məsələləri"nə həsr olunmuş xüsusi fəslində tənqidçi dəyərləndirmələrinə ədəbiyyat nəzəriyyəçiliyi notları da əlavə olunmuşdur. Bütün bunlara baxmayaraq, 1970-ci ildə tamamlanmış "Böyük Vətən müharibəsi və Azərbaycan ədəbiyyatı" monoqrafiyasında olduğu kimi, 2001-ci ildə oxuculara çatdırılmış "İstiqlal şairi" monoqrafik tədqiqatında da alimin tənqidçi ağırlığı üstünlük qazanmışdır. Bütövlükdə beşcildlik "Seçilmiş əsərlər" Bəkir Nəbiyevin tənqidçi ağırlıqlı görkəmli ədəbiyyatşünas olduğunu təsdiq edir. Azərbaycan ədəbiyyatşünaslığında vətəndaşlıq hüququ qazanmış ədəbi-tənqidi məqalələr yazmaq ənənəsi ilə müqayisədə ədəbi tənqid axarında monoqrafiyaların meydana çıxması geniş yayılmamışdır. Akademik Bəkir Nəbiyev geniş həcmli monoqrafik əsər boyu tənqidçi ampulasında qalmağın nümunəsini göstərmişdir. Tənqid ağırlıqlı monoqrafiyaları ilə o, Azərbaycan ədəbi tənqidinin "romanını" yaratmışdır. Fikrimizcə, o, milli ədəbiyyatşünaslıq elmində bu üslubun görkəmli yaradıcısıdır. Tam halda beşcildlik "Seçilmiş əsərlər"dən çıxan başlıca yekun qənaət, mühüm elmi nəticə bundan ibarətdir. Bəhs edilən üslub Bəkir Nəbiyevin haqqında söz açdığı yaradıcı şəxsiyyətin fəaliyyətinə, onun bədii əsərlərinə ədəbi-tarixi baxışla yanaşı, həm də müasirlik işığında elmi qiymət verməsinə imkan yaradır. Bəkir müəllimin elmi əsərlərinin mütləq əksəriyyətinin özünəməxsusluğu ədəbi-tarixi meyarlarla müasirlik prinsiplərinin vəhdətində məna tapır. Hətta akademik Bəkir Nəbiyev beşcildliyə yazdığı "Möhtərəm oxucu" adlı yığcam müqəddimədə də özünü tənqidçi qismində görmüşdür.

Bəkir Nəbiyevin beşcildliyə daxil edilmiş Firidun bəy Köçərliyə həsr edilmiş monoqrafik tədqiqatında ədəbiyyat tarixçiliyinin üstünlüyü müşahidə olunur. Bu, bir tərəfdən seçilmiş formanın (həyatı və yaradıcılığı, yaxud ömürdən səhifələr) tələbatından, digər tərəfdən isə Firidun bəy Köçərlinin elmi fəaliyyətində Azərbaycan ədəbiyyatı tarixi məsələlərinin üstün yer tutmasından irəli gəlir. Müəllif bu əsəri yazarkən hətta müxtəlif arxivlərin fondlarına da baş vurmalı olmuşdur. Əsərdə Firidun bəy Köçərlinin tərcümeyi-halı və yaradıcılıq yolu aşkar edilmiş faktların və sənədlərin əsasında mükəmməl səviyyədə tədqiq edilib ümumiləşdirilmişdir. Hələ 1960-cı ildə namizədlik dissertasiyası kimi meydana çıxmış "Firidun bəy Köçərlinin həyatı və yaradıcılığı" monoqrafiyasında təqdim edilən materiala köçərlişünaslar sonralar çox da ciddi əlavələr edə bilməmişlər. Aradan yarım əsr keçməsinə baxmayaraq, bu monoqrafik əsər özünün elmi dəyərini qoruyub saxlamışdır. Səmərəli axtarışların sayəsində ərsəyə gəlmiş tədqiqatda Firidun bəy Köçərlinin tənqidçilik fəaliyyəti də daha çox ədəbiyyat tarixçiliyi istiqamətində öyrənilmişdir. Böyük mütəfəkkirin məşhur "Azərbaycan ədəbiyyatı" əsərini "ədəbiyyatşünaslıq elmimizin ilk və ən sanballı abidəsi" adlandıran tədqiqatçı əslində bu əsəri ilə Firidun bəy Köçərliyə layiqli elmi abidə ucaltmışdır.

Ümumiyyətlə, Bəkir Nəbiyev monoqrafik səciyyəli araşdırmalarla müqayisədə ədəbi tənqidin ən çevik xitabət kürsüsü sayılan məqalə yaradıcılığına daha çox müraciət etmişdir. Görkəmli alimin bütün məqalələri bir yerə toplanarsa, yeni bir çoxcildlik meydana çıxa bilər. Beşcildliyə daxil edilən məqalələr müəllifin məqalələr silsiləsindən seçilmiş nümunələrdir. Onun məqalələri haqqında bəhs edən sənətkarlar barəsində yığcam elmi əsərlər təəssüratı yaradır. Məqalələrdə yazıçıların ömür və sənət yolunun əsas cizgiləri, qabarıq cəhətləri göz önünə gətirilmişdir. Bu mini əsərlər "Azərbaycan renessansının poeziya günəşi" Nizami Gəncəvinin, "hürufilik təriqətinə mənsub bir təfəkkür sahibi, ...öz əqidəsində sarsılmaz olan" İmadəddin Nəsiminin insan münasibətlərində saflıq və halallıq, sədaqət və mehribanlıq, paklıq və gözəllik tərənnümçüsü" Yunis İmrənin kiçik elmi portretləridir. Hətta Bəkir Nəbiyev sənətkarların özləri ilə birlikdə onların mənsub olduqları ölkənin və ya şəhərin də portretini yaratmağa müvəffəq olur: "Gəncəvi deyilərkən poeziya aləmində nəzərdə nurlu siması canlanan ilk böyük şair Nizami olduğu kimi, Nizami deyiləndə də onun zəngin sənət aləmi ilə yanaşı, bu nadir incilərin doğulub canlandığı yer - Gəncə şəhəri gözlərimiz önündə canlanır". Bu elmi mülahizələr həm də müəllifin Nizami Gəncəvini "Azərbaycandan qoparmağa cəhd edənlərə" cavabının ifadəsidir. Yaxud Nəsimidən bəhs edən və müxtəlif vaxtlarda nəsimişünaslıq məclislərində səsləndirilən məruzə-məqalənin "Azərbaycan şerinin Nəsimi möcüzəsi" adlandırılması da təsadüfi olmayıb, qərib məzarı Hələb şəhərində olan böyük şairin ana vətəninin Azərbaycan olduğunu nəzərə çarpdırmaq məqsədi daşıyır. Və ya "Füzuli haqqında üç yarpaq söz" məqaləsindəki "Füzulinin baba yurdu olan Azərbaycan" ifadələri də alimin vətəndaşlıq duyğularını səciyyələndirir. Bununla belə, müəllif sənətdə Füzuli dühasının yerini və mövqeyini də obyektiv meyarlarla müəyyənləşdirmişdir: "Füzuli mənsub olduğu türk xalqlarının müdrik söz ustadı, sevimli şairi, Şərq poeziyasının iftixar etdiyi qüdrətli sənətkardır, dünya mədəniyyətinin, bəşər bədii təfəkkürünün yetişdirdiyi nadir dühalardan biridir". Bütün bunlara görə "Füzuli haqqında üç yarpaq" məqaləsi Azərbaycan füzulişünaslığına Bəkir Nəbiyevin dəyərli əlavəsidir. Eyni zamanda, "Xalq mənəviyyatının güzgüsü" məqaləsi də qorqudşünaslığın əlavə səhifələri təəssüratı yaradır. "Dədə Qorqud" dastanlarını "oğuz xalqlarının şah əsəri, ata kitabı, ...zəngin biliklər ensiklopediyası" hesab edən Bəkir Nəbiyev öz bucağından bu möhtəşəm oğuznamənin poetikası və estetikasına dair əhəmiyyətli fikirlər irəli sürmüşdür. Nadir istedada malik görkəmli ədəbiyyatşünas, mərhum Yaşar Qarayevlə müştərək yazılmış məqalə yeni dövr Azərbaycan qorqudşünaslığının nailiyyətlərindən sayılmağa layiqdir. Azərbaycan aşıq ədəbiyyatının qüdrətli nümayəndəsi Aşıq Ələsgərin yaradıcılığından söz açan "Ustad aşıq, böyük vətəndaş" məqaləsi ozan-aşıq mədəniyyətinin araşdırılması sahəsindəki konkret elmi təcrübənin bəhrəsidir. Xalq şairi Zəlimxan Yaqubun xalq ədəbiyyatı ənənələri üstündə ucalmış yaradıcılığından bəhs edən "Ələsgər ətirli sətirlər" məqaləsindəki təhlillər və müqayisələr də Bəkir Nəbiyevin folklorşünaslıq baxışlarının genişliyini nəzərə çarpdırır.

Dövlət və ədəbiyyat, siyasət və sənət akademik Bəkir Nəbiyevin elmi-ictimai fəaliyyətində həmişə diqqət mərkəzində saxlanılan məsələ olmuşdur. Ciddi elmi səriştə ilə yanaşı, həm də yüksək siyasi hazırlığa malik olan Bəkir Nəbiyevin tədqiqatlarında bu məsuliyyətli mövzu özünün mükəmməl elmi həllini tapmışdır. Bu sırada xüsusi yer tutan "Heydər Əliyev haqqında etüdlər" əsəri özünün əhatə dairəsi etibarilə etüdlərin sədlərini aşaraq mükəmməl bir elmi-ədəbi traktat səviyyəsində ümumiləşir. Əsərdə görkəmli dövlət xadimi Heydər Əliyevin ədəbiyyat təlimi Azərbaycan dövlətinin ədəbiyyat siyasətinin əsasları səviyyəsində təqdim olunur. Bu, Azərbaycanda ədəbiyyata dair dövlət təliminin ədəbiyyatşünaslığını yaratmaq istiqamətində meydana çıxan ən qiymətli əsərdir. Müxtəlif illərdə yazılmış "Yenidənqurma və poeziyamız", "Birinci türkoloji qurultayda ədəbiyyat məsələləri", "Ədəbiyyatın fəlsəfəsinin tədqiqi", "Bayraq enmədi" kimi elmi məqalələrdə də ədəbiyyat və siyasət məsələləri həm elmi-nəzəri, həm də siyasi-ideoloji baxımdan aydın mövqedən işıqlandırılmışdır. Bütün bunlar hamısı bir yerdə müstəqillik dövrü Azərbaycan ədəbiyyatşünaslıq siyasətinin müsbət nəticələri kimi də mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan ədəbiyyatının problemlərinin tədqiqinə B.Nəbiyev bir ömür həsr etmişdir. Həm ölkəmizdə, həm də beynəlxalq elmi məclislərdə o, dəfələrlə ədəbiyyatımızın ən aktual, müasir, zəruri problemlərinə həsr edilmiş məruzələrlə çıxış etmiş, bu istiqamətdə sanballı elmi araşdırmaları meydana qoymuşdur. Beşcildlikdə yer alan əsərlər içərisində problem-məqalələrin geniş yer tutması Bəkir müəllimin elmi-ictimai fəaliyyətindən irəli gələn reallığı əks etdirir. "Nəsrimiz bu gün", "Ədəbiyyat elmi: uğurlar, problemlər, perspektivlər", "Azərbaycan ədəbiyyat elmi mühacirətdə", "Bədii tərcümənin problemləri" və sair kimi məqalələr ədəbiyyatımızın və ədəbi mühitimizin əhəmiyyətli problemlərinin əsaslı dərkini və şərhini özündə köklü, əhatəli şəkildə əks etdirən elmi araşdırmalardan yoğrulmuşdur. Vaxtilə qaldırılmış və elmi surətdə izah olunmuş problemlərin bir çoxunun hazırkı dövr üçün də aktuallıq kəsb etməsi bu araşdırmaların beşcildliyə vəsiqə almasını şərtləndirmişdir.

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı kimi qəbul edilən Bəkir Nəbiyevin elmi araşdırmalarında bu keşməkeşli tarixi epoxanın müxtəlif mərhələlərini təmsil edən sənətkarların həyatı və yaradıcılığının tədqiqi mühüm yer tutduğu üçün beşcildlik "Seçilmiş əsərlər"də də həmin qəbildən olan elmi əsərlərin meydanı genişdir. Cildlərdə didərgin şair, Azərbaycan istiqlalının mücahidi Almas İldırımın monoqrafik tədqiqat səviyyəsində, görkəmli sənətkarlar Cəfər Cabbarlı, Əhməd Cavad, Mikayıl Müşfiq, Mir Cəlal, Əliağa Vahiddən ayrı-ayrı portret məqalələr qismində, xalq yazıçısı Mirzə İbrahimovdan, yazıçı-alim Şıxəli Qurbanovdan, ustad ədəbiyyatşünas Məmməd Arif Dadaşzadədən, professor Cəfər Xəndan və Əli Sultanlıdan xatirələr əsasında geniş söz açılır. Bütün hallarda müəllif üz tutduğu yazıçı, şair və ədəbiyyatşünasların həyatı və fəaliyyətinin səciyyəvi cəhətlərini tapıb müəyyənləşdirmiş, elmi şəkildə onların bənzərsiz obrazlarını canlandırmışdır. Müasiri olduğu sənət xadimləri İsmayıl Şıxlı, Əliağa Kürçaylı, Nigar Rəfibəyli, Ənvər Məmmədxanlı, Mirvarid Dilbazi, Anar, Elçin, Qabil, Fikrət Qoca, Məmməd Araz, Xanımana Əlibəyli, Hüseyn Kürdoğlu, Hüseynbala Mirələmov, Şahin Fazil və başqaları haqqındakı məqalələr Bəkir Nəbiyevin monoloqları təsiri bağışlayır. Mühacirət ədəbiyyatından, ədəbi əlaqələrdən, Cənubdan səslərdən bəhs edən məqalələrin beşcildlikdə yer alması bu görkəmli alimin elmi fəaliyyətini tam halda təqdim etməyə xidmət edir. Həmçinin Amerika, Yaponiya, Çin, Yunanıstan, İraq və Suriya səfərlərinə dair geniş, cəlbedici, zəngin təəssüratların beşcildliyə daxil edilməsi yaşanmış mənalı ömür yolunun bütün təfərrüatlarının oxucuya çatdırılmasına münasib imkan yaradır.

"Seçilmiş əsərlər"in hər cildində ayrı-ayrı tanınmış alimlər tərəfindən müqəddimə, ön söz xarakterli elmi məqalələrin verilməsi çoxcildliklərin nəşri tarixində ilk dəfə bu beşcildlikdə təzahür edən yeni ənənədir. Konkret olaraq təqdim olunan cildə daxil edilmiş əsərləri dərindən öyrənməyə, yaxından tanımağa bələdçilik edən müqəddimələr geniş mənada Azərbaycan Bəkir Nəbiyevşünaslığının biri digərini təkrar etməyən elmi səhifələridir. AMEA-nın müxbir üzvü Teymur Kərimli, filologiya elmləri doktorları, professorlar Qəzənfər Paşayev, Vaqif Arzumanlı, sənətşünaslıq doktoru, professor İsrafil İsrafilov, filologiya elmləri namizədi, dosent Nikpur Cabbarlı tərəfindən yazılmış müqəddimələri Bəkir Nəbiyev haqqında kitab kimi də ayrıca nəşr etmək olar.

Ümumiyyətlə, beşcildlik "Seçilmiş əsərlər" Azərbaycan ədəbiyyatşünaslarının ağsaqqalı və böyük müəllimi akademik Bəkir Nəbiyevin altmış il davam edən elmi fəaliyyətinin layiqli hesabatıdır. Beşcildlikdə toplanan əsərləri yazılma tarixindən, janrından və ya həcmindən asılı olmayaraq vahid elmi sistem birləşdirir. Bu əsərlərin problemləri, təhlil üsulları, yanaşma və müqayisə metodları, yazı tərzi yalnız və yalnız Bəkir Nəbiyevə məxsusdur. Fikrimizcə, bütövlükdə beşcildlik "Seçilmiş əsərlər"i Azərbaycan ədəbiyyatşünaslığının Bəkirnaməsi adlandırmaq olar. Akademik Bəkir Nəbiyevin beşcildlik Bəkirnaməsi sözün geniş mənasında Azərbaycan ədəbiyyatşünaslığının da uğurnaməsi hesab oluna bilər. "Seçilmiş əsərlər" Bəkirnamə müəllifi Bəkir Nəbiyevin çoxillik və səmərəli elmi fəaliyyətinin sanballı yekunudur. Bəkirnamə həm də səksən yaşında elmi-ədəbi mühitdə fəal nəzərə çarpan, müdrik alim-ağsaqqal sözü deyən Bəkir Nəbiyevin həyatının yeni mərhələsinin başlanğıcıdır. Daha böyük uğurlar arzulayırıq.

**İsa HƏBİBBƏYLİ**
*Naxçıvan Dövlət Universitetinin rektoru, akademik*